# Çikaqo Universiteti

**Yerləşir:** ABŞ, İllinoys ştatı, Çikaqo şəhəri
**Yaranma tarixi:** 1890-cı il
**Tipi:** Özəl
**Akademik heyət:** 2205 nəfər
**Tələbələrin ümumi sayı:** 15312 nəfər
**Rəsmi saytı:** www.uchicago.edu

Çikaqo Universiteti (Universitety of Chicago) ABŞ-ın Çikaqo şəhərində, İllinoys ştatında yerləşən elmi-tədqiqat axtarış mərkəzidir. Bu universitet ABŞ-da Amerika fənlərarası humanitar elmlər kollecini və alman tədqiqat universitetlərini birləşdirən ilk ali təhsil ocağıdır. Ali məktəb özünün fərqli tədris planı və 1930-cu ildə universitetin prezidenti Robert Maynard Hatçins tərəfindən əsası qoyulmuş təhsil islahatları ilə seçilir. ABŞ-da ən böyük universitet nəşriyyatı bu təhsil ocağında yerləşir, universitetin nəzdində ölkədə ilk olaraq müstəqil Sosiologiya Məktəbi yaradılıb. Universitet Böyük Britaniyanın "Times Higher Education" jurnalının və "QS University Subject Rankings" nəşrinin 2015-2016-cı tədris ili üçün dünya universitetlərinin reytinq cədvəllərində 10-cu, ABŞ-ın milli universitetləri reytinqində isə 4-cü yerdədir.



## Tarixi

Çikaqo Universiteti 1890-cı ildə neft maqnatı və xeyriyyəçi Con Rokfeller tərəfindən yaradılıb. 1891-ci ildə Uilyam Reyni Harper universitetin rəhbəri təyin edilib və ilk dərslər 1892-ci il oktyabrın 1-dən başlanıb. 1898-ci ildə universitetin nəzdində Biznes, 1902-ci ildə isə Hüquq məktəbi yaradılıb. 1906-cı ildə R. Harper vəfat edib və 1923-cü ilədək burada üç prezident dəyişib. Bu dövr ərzində universitetin nəzdində Şərq İnstitutu yaradılıb. 1929-cu ildə Robert Hatçins Çikaqo Universitetinə prezident təyin olunub. Prezidentliyi 24 il sürən Hatçins bir çox dəyişiklik edib, o, alimləri universitetə cəlb edərək "Ortaq Nüvə" tədqiqat mərkəzini yaradıb və liberal sənət tədris planını həyata keçirib. Onun rəhbərliyi altında Çikaqo Universiteti Xəstəxanaları (Çikaqo Universiteti Tibb Mərkəzi), İctimai Düşüncə Komitəsi yaradılıb, tibb fakültəsi açılıb. II Dünya müharibəsi dövründə universitet Manhetten layihəsinə önəmli əlavələr edib. 1942-ci ildə məşhur fizik Enriko Fermi burada ilk dəfə nüvə reaksiyaları aparıb, plutoniumun izolyasiyası üzrə iş həyata keçirilib. 1962-ci ildə universitetin prezidenti Bidlin kampus torpaqlarını icarəyə verdiyi üçün tələbə hərəkatı baş verib. 1969-cu ildə universitetin 400 tələbəsi məşhur müəllimləri Marle Diksonun işdən çıxarılmasına qarşı çıxaraq bu təhsil ocağının inzibati binasını ələ keçirib. Tələbələr 2 həftə müddətində binanı tərk etməyiblər. 1978-ci ildə Anna Holborn Qrey Çikaqo Universitetinin prezidenti seçilib və 15 il bu vəzifədə çalışıb. 1999-cu ildə universitetin prezidenti Huqo Sonnensçeyn əsas fənlərin sayını 21-dən 15-ə endirərək məşhur nüvə tədris planını zəifldib. Bütün mətbuat bu məsələni müzakirə edib, universitet təhsili cəmiyyətdə əsas müzakirə mövzusuna çevrilib, nəticədə prezident Huqo Sonnensçeyn 2000-ci ildə istefa verməli olub.

Son on ildə Çikaqo Universiteti milyonlarla dollar dəyərində genişlənmə layihələrini reallaşdırıb. 2008-ci ildən universitetdə Milton Friedman İnstitutu yaradılıb. İnstitutun açılması təxminən 200 milyon dollara başa gəlib və Çikaqo İlahiyyat Seminariyasının binasında yerləşib. 2009-cu ildə 100 milyon dollar dəyərində yeni tədqiqat mərkəzləri və digər layihələr həyata keçirilib. Bunlardan Cerald Ratner İdman Mərkəzini, 10 mərtəbəli Tibbi Tədqiqat Mərkəzini, Biotibbi Kəşflər İnstitutunu və başqalarını qeyd etmək olar.

## Universitet bu gün

Çikaqo Universitetinin kampusu Çikaqo şəhərinin mərkəzində - Hayd-parkda, Miçiqan gölünün yaxınlığında 87,8 hektarlıq (217 akr) ərazidə yerləşir. Kampusun ərazisində ümumilikdə 243 bina var. Binalar Oksford Universitetinin binalarına oxşar qotik (orta əsrlərdə Avropada yayılmış memarlıq üslubu) tərzdə inşa edilib. Çikaqo Universitetinin Mitçel qülləsi eynilə Oksford Universitetinin Maqdalena qülləsinə, Hatçinson salonu isə Krist kilsəsinə oxşayır. Kampusun "Ana Dördbucaq" adlanan əsas hissəsinin binaları memar Henri İves Kobb tərəfindən inşa edilib - altı dördbucaq bina bir böyük dördbucaq meydan əmələ gətirir. 1940-cı illərdən başlayaraq, qotik üslubunu müasir tərzdə inşa edilmiş tikililər əvəz edir. 2001-ci ildə meksikalı postmodernist Rikardo Liqoretta tərəfindən Maks Palevski yataqxanası tikilib. Çikaqo Universitetində ana şəhərcikdən kənarda da tikinti işləri aparılır. Ali məktəbi beynəlxalq universitet adlandırmaq olar, universitetin dünyanın 20-dən artıq ölkəsində, London, Paris, Dehli və Pekin kimi şəhərlərdə elmi mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərdə 45 ixtisas üzrə tədris aparılır. Çikaqo Universitetində təhsil alan tələbələrin 60 faizi kampusun ərazisində yaşayır. Burada 38 tələbə yataqxanası var. Aspirant və magistrlərin qalmaları üçün kampusun yaxınlığında 28 bina ayrılıb. Kampusun ərazisində Reynold Klubu adlanan tələbə mərkəzi, muzeylər, teatrlar, restoranlar, ticarət və əyləncə mərkəzləri, idman kompleksləri, bağlar, parklar yerləşir. Çikaqo Universitetində İlahiyyat Məktəbi, Biznes Ali Məktəbi, Harris İctimai Siyasət Tədqiqatları Məktəbi, Hüquq Məktəbi, Pritsker Tibb Məktəbi, İctimai Xidmət Rəhbərliyi Məktəbi adlanan altı məktəb və təhsilin davam etdirilməsi üçün Graham Ümumi Tədqiqatlar Məktəbi mövcuddur. Məktəblər biologiya, humanitar, təbiət və ictimai elmlər üzrə ixtisaslaşdırılıb. Hüquq Məktəbi Amerika Vəkillər Assosiasiyası, İlahiyyat Məktəbi ABŞ və Kanada İlahiyyat Məktəbləri Assosiasiyası, Pritsker Tibb Məktəbi Tibbi Təhsil Əlaqə Komitəsi tərəfindən akkreditə olunur. Universitetin nəzdində universitetəqədər təhsil məktəbləri də fəaliyyət göstərir (Çikaqo Universitetinin Laboratoriya Məktəbləri, Hayd-park Gündüz Məktəbi, Orthogenic Məktəb, Orta Məktəb Yay Proqramları). Çikaqo Universitetinin kitabxana sistemi altı arxivdən ibarətdir və ümumilikdə 11 milyon cild kitaba malikdir. Universitetin ən zəngin kitabxanası Regensteyn adlanır. Şəhərcikdə ən böyük bina olan bu kitabxana memar Uolter Netç tərəfindən inşa edilib. Con Krerar adına kitabxanada tibb, biologiya, fizika, fəlsəfə, tarix, texnologiya və s. elmlərə aid olan 1,3 milyon cilddən çox kitab var. Bundan əlavə, universitetdə D.Ancelo Hüquq, İctimai Xidmət Rəhbərliyi, Eçkart riyaziyyat və kompüter elmləri kitabxanaları da fəaliyyət göstərir. Universitet şəhərciyində 150 elmi-tədqiqat institutu və mərkəzi yerləşir. Bunlardan Şərq İnstitutunu - Yaxın Şərq məsələləri üzrə tədqiqat mərkəzi və muzeyini, Milli Qaynaq Mərkəzini, Arqon Milli Laboratoriyasını, ABŞ Dövlət Enerji Müəssisəsinin bir parçası olan Milli Laboratoriya Sistemini, Fermilab Tədqiqat Laboratoriyasını, Sunspot və Nyu-Meksikoda yerləşən Apaçi Point Rəsədxanasını, Çikaqo Toyota Texnoloji İnstitutunu, İctimai Fikir Araşdırma Mərkəzini və s. qeyd etmək olar. Universitetin nəzdində ABŞ-ın ən böyük universitet mətbuatı - Çikaqo Universitetinin Mətbuatı fəaliyyət göstərir. Universitetin alimləri əsasən biologiya, fiziki, ictimai, bəşəriyyət elmləri və yeni bölmə üzrə fəaliyyət göstərir. Çikaqo Universiteti bir çox əhəmiyyətli təcrübələr və kəşflərin yarandığı məkandır: iqtisadiyyat sahəsi üzrə sərbəst bazar haqqında irəli sürülmüş fikir, Robert Millikanın "neft-damla təcrübəsi", elektron yükünün hesablanması, radiokarbonun tarixləşdirmə inkişafı. Universitetin hər bir tədris və laboratoriya kompleksi ən müasir avadanlıqlarla təchiz olunub, ali məktəbin təkcə kitabxanasının dəyəri 80 milyon dollar həcmində qiymətləndirilir. Kitabxananın xüsusi özəlliyi bundadır ki, oxuculara zəruri ədəbiyyatların axtarılıb seçilməsində robot kömək edir.

## İdarəçilik

Çikaqo Universiteti İdarə Heyəti tərəfindən koordinasiya edilir. Heyət universitetin prezidenti daxil olmaqla 50 nəfərdən ibarətdir, universitetin inkişaf planına və edilən yardımlara nəzarət edir. Universitetin prezidenti Robert Zimmer, rektoru isə Erik İsaaksdır. Çikaqo Universitetində 2205 professor-müəllim heyəti - yüksək səviyyədə ixtisaslaşmış mütəxəssis heyəti, 14772 nəfər administrativ heyət (universitetin Tibb mərkəzinin əməkdaşları da daxil olmaqla ) fəaliyyət göstərir. Universitet bütün il boyu fəaliyyət göstərir. Dərslər sentyabrın əvvəllərində başlayır, iyunun ortalarında bitir. Yay aylarında isə burada müxtəlif yay məktəbləri fəaliyyət göstərir. Universitetin tələbəsi arzusunda olanlar sənədlərini yanvarın 1-ə kimi ali məktəbə göndərməlidirlər. Bununla belə, nəzərə almaq lazımdır ki, digər universitetlərə sənəd verməyə hazırlaşmayan abituriyentlər öz sənədlərini daha tez, noyabrın 8-dək ali məktəbə təqdim edə bilərlər. Belə ki, bu halda yalnız Çikaqo Universitetinə sənəd verənlərin ("early decision") müəyyən üstünlükləri olacaq. ACT və ya SAT imtahan testlərinin nəticələrini universitetə yanvarın 26-a kimi göndərmək lazımdır. Universitetə qəbul üçün ilkin ödəniş 75 dollar təşkil edir. Ali məktəbə sənəd verənlərin yalnız 8,8 faizi tələbə adını qazanır. Universitet hər il maliyyə yardımları və təqaüdlər üçün 85 milyon dollar xərcləyir. Ali məktəb yüksək rəqabətin olduğu universitetlərdən biri kimi təkcə əlaçı tələbələrinə deyil, həm də ehtiyacı olan tələbələrə maliyyə yardımları göstərir.


*Universitetin sabiq müəllimi Barak Obama (1992-ci il)*

## Büdcəsi və təhsil haqları

Bu gün Çikaqo Universiteti sürətlə inkişaf edən beynəlxalq elmi-tədqiqat mərkəzinə çevrilib. Xüsusilə universitetin fizikləri, iqtisadçıları, kimyaçıları, hüquqşünasları bütün dünyada məşhurdur. Dünya elminin inkişafında bu təhsil ocağının müstəsna xidmətləri var. 2016-cı ilin məlumatına əsasən, universitetdə 15312 tələbə təhsil alır. Onlardan 5724 nəfər bakalavr, 9588 nəfər aspirantdır. Burada təhsil alan tələbələrin 18%-i əcnəbilər, 23%-ni yerli etnik azlıqlar, 45%-ni isə qadınlar təşkil edir. Universitetdə tələbə-müəllim nisbəti 6:1-dir. Kurslar 20 tələbədən təşkil olunur. Universitetdə ən çox tələb olunan ixtisaslar iqtisadiyyat, biologiya və bio-tibbi elmlər, riyaziyyat və statistika, siyasi elmlər və hakimiyyət, ingilis dili və ədəbiyyatdır. Universitet tələbələrinin 99 faizi aldıqları təhsilin səviyyəsindən məmnundurlar. Universitetdə 2015-2016-cı tədris ilində illik təhsil haqqı 50193 dollar təşkil edir. Yaşayış və ərzaq xərcləri isə 14772 dollardır. 2016-2017-ci tədris ili üçün illik təhsil haqları digər zəruri xərclər də nəzərə alınmaqla 72717 dollar müəyyən olunub. Universitetin endaument fondu 7 milyard 550 milyon dollar, illik büdcəsi 5 milyard dollardır. 2015-ci ildə universitetin gəlirləri 3 milyard 720 milyon, xərcləri 3 milyard 700 milyon dollar təşkil edib.

Təhsil ocağına edilən yardımlar büdcənin formalaşmasında mühüm faktordur. Son illərin təcrübəsi göstərib ki, yardımların həcmi universitetin öz vəsaitlərindən artıqdır. Universitetin büdcəsinin 40 faizi təhsil haqlarından formalaşır.


*Tələbələr universitetin həyatında*


*Universitetin kitabxanası*

## Məşhur məzunları

Universitetin məşhur məzunlarından 89 nəfəri fizika, hüquq, iqtisadiyyat və sosiologiya sahəsində yüksək uğurlarına görə Nobel mükafatına layiq görülüb. Məşhur məzunlarının sayına görə universitet dünyada üçüncü yerdədir. Ali məktəb iqtisadiyyat, fizika, hüquq və sosiologiya sahəsində tanınmış mütəxəssisləri ilə bütün dünyada məşhurdur. Universitetin məşhur məzunları arasında dövlət xadimləri Marek Belka (Polşanın sabiq prezidenti), Qonzalo Sançes de Lozada (Boliviyanın sabiq prezidenti), Alvaro Maqana (Salvadorun sabiq prezidenti), Əhməd Çələbi (İraqın baş nazirinin sabiq müavini), Zalmey Xəlilzad (ABŞ-ın BMT-dəki səfiri), Ceyms Hormel ABŞ-ın (Lüksemburqdakı sabiq səfiri), Nobel mükafatçılarından Luis Alvarez, Ouen Çemberlin, Ceyms Kronin, Klinton Devisson, Cerom Fridman, Ernest Lourens, Tsyunq-Dao Li, Robert Milikan, Cek Steynberger (fizika üzrə), Ceri Bekker, Ceyms Buçanan, Milton Fridman, Robert Lukas, Hari Markoviç, Paul Samuelson (iqtisadiyyat üzrə), Saul Bellou, Con Maksvell Koets (ədəbiyyat üzrə), Herbert Broun, İrvin Rouz, Şervud Roland (kimya üzrə), Rocer Sperri, Edvard Louri Tatum, Ceyms Uotson (tibb üzrə), Emili Qriin Balç (sülh üzrə) var. Universitet məzunlarının illik əməkhaqları 53400-255000 dollar arasında dəyişir. 2008-ci ildə ali məktəbin 1971-ci il məzunu, amerikalı biznesmen, fond icraçısı Devid But universitetə tarixi ərzində ən böyük yardım - 300 milyon dollar hədiyyə edib. Universitetin biznes məktəbi hazırda D.Butun adını daşıyır. Qeyd edək ki, ABŞ-ın hazırkı prezidenti Barak Obama da bir müddət Çikaqo Universitetində müəllim kimi fəaliyyət göstərib. O, 1992-ci ildən 2004-cü ilədək bu ali təhsil müəssisəsinin Hüquq Məktəbində Konstitusiya hüququ fənnindən dərs keçib. Barak Obamanın həyat yoldaşı Mişel Obama isə Çikaqo Universitetinin Tibb Mərkəzində işləyib.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*